# Nailiyyətlərin təməlində dayanan milli birlik

*Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətdə atdığı qətiyyətli və ardıcıl addımlar bu gün Azərbaycanı köklü surətdə dəyişib. Sosial sahədən tutmuş iqtisadiyyata, siyasətdən hərbi və ictimai institutlara qədər hər yerdə yenilənmənin, inkişafın, islahatın nəfəsi duyulur. Bu dəyişikliklərin hər biri Azərbaycanın bu günü və gələcəyi üçün atılmış strateji addımların real nəticəsidir. Müstəqil Azərbaycanın bugünkü uğurlu yol xəritəsi ümummilli lider Heydər Əliyevin parlaq ideyalarına əsaslanır. Amma bu ideyaların gerçəkləşməsi, onların zamanın çağırışlarına uyğun şəkildə yenidən interpretasiyası sözsüz ki, Prezident cənab İlham Əliyevin liderliyi ilə mümkün oldu. Azərbaycan xalqı 20 il əvvəl İlham Əliyevə göstərdiyi etimadla əslində təkcə bir siyasi fiquru deyil, gələcəyini, sabitliyini və inkişaf arzularını da ona həvalə etdi.*





2018-ci ilin 18 aprel tarixində keçirilən andiçmə mərasimində Prezident İlham Əliyevin səsləndirdiyi sözlər bu etimada necə böyük məsuliyyətlə yanaşdığını bir daha nümayiş etdirdi: "2003-cü ildə demişdim ki, əgər mənə xalq etimad göstərərsə, Heydər Əliyev siyasətinə sadiq qalacağam. Mən fəxr edirəm ki, xalq mənə inandı və mən də sözümə əməl etdim". Bu illər ərzində Azərbaycanın reallıqları tam dəyişdi. Bir zamanlar yalnız arzularda mövcud olan enerji layihələri bu gün reallığa çevrilib. Azərbaycanın hər guşəsində aparılan abadlıq şəhərlərin simasının dəyişməsi, ölkəmizin beynəlxalq nüfuzunun artması, bütün bu uğurlar bir siyasi iradənin - İlham Əliyev liderliyinin təzahürüdür. Bu gün Azərbaycan təkcə regionda deyil, dünya miqyasında da söz sahibi olan bir dövlətdir. Və bu güclü dövlətin arxasında dayanan siyasi iradə, strateji baxış və xalqına bağlı bir lider var.

Azərbaycanın yaşadığı sürətli inkişaf yalnız rəqəmlərdə və statistik göstəricilərdə deyil, xalqın gündəlik həyatında, dövlətin beynəlxalq nüfuzunda, milli qürurumuzda öz əksini tapır. Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən liderliyi ilə bu dövrdə əldə olunan tərəqqi cəmiyyətin bütün sahələrinə nüfuz etdi - iqtisadiyyatdan sosial həyata, siyasətdən mədəniyyətə qədər hər sahədə yenilənmə, dirçəliş və dönüş baş verdi. Bu gün Azərbaycan artıq beynəlxalq aləmdə sadəcə adıçəkilən bir ölkə deyil, söz sahibi olan, təşəbbüslərlə çıxış edən, proseslərə yön verən güclü bir dövlətdir. Regionda isə liderlik statusunu tam mənası ilə təsdiqləyib. Prezident İlham Əliyev demokratiyanı sadəcə Qərbin təkrarlanan şüarları kimi qəbul etmədi. O, bu anlayışı milli kimliyimizlə, mənəviyyatımızla, mentalitetimizlə və müsəlman dünyagörüşü ilə vəhdət halına gətirərək demokratiyanın özünəməxsus Azərbaycan modelini yaratdı. Bu model xalqın ruhuna, tarixi yaddaşına, mədəni koduna uyğun şəkildə formalaşdı və nəticədə cəmiyyətin təməllərində yeni, müasir, intellektual əsaslı demokratik bir quruluş meydana çıxdı. Bu gün Azərbaycan iqtisadi gücü, siyasi sabitliyi, cəmiyyətdə hökm sürən həmrəylik və dünyada artan nüfuzu ilə sözün əsl mənasında güclü, qüdrətli və ehtişamlı bir dövlət yaradıb. Bu, yalnız öz vətəndaşları üçün deyil, beynəlxalq birlik üçün də nümunə və tərəfdaşlıq simvoludur.

30 il düşmən tərəfin atəşləri zaman-zaman sərhədlərimizdə səsləndi. Hər dəfə Azərbaycan əsgərinin cavab atəşi, xalqın sinəsində yığılıb qalan hiddətin, Vətənin qeyrətin sarsıdıcı zərbəsi oldu. Bu illər ərzində düşmən çox şeyi unudaraq bizi sınamağa çalışdı. Amma unudulan bir həqiqət vardı - bu xalqın yaddaşı güclüdür, vətən sevgisi isə sonsuz. Tarixin səhifələrinə qızıl hərflərlə yazılan uğurlardan biri də Aprel zəfərindən iki il sonra - 2018-ci ilin mayında qazanılan Günnüt qələbəsi oldu. Naxçıvan torpağında dalğalanan bayrağımız, işğaldan azad edilmiş Günnüt kəndi və 11 min hektardan çox ərazinin düşməndən təmizlənməsi bir daha göstərdi ki, Azərbaycan Ordusu təkcə müdafiədə yox, hücumda da güclüdür, qətiyyətlidir, iradəlidir.

İqtisadi-sosial sahələrdə də əsaslı yeniliklər özünü doğrultmuşdur. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının Trans-Anadolu (TANAP) boru kəməri ilə Türkiyəyə göndərilməsinə başlanıldı. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. Azərbaycan təbii qazının 31 dekabr 2020-ci ildə Avropa bazarına tədarükünə başlanılıb. Cənub Qaz Dəhlizinin ümumi dəyəri təxminən 40 mlrd. ABŞ dollardır. Bununla yanaşı, Azərbaycan yeni enerji resurslarının istifadəsi və ixracı üçün daim uğurla çalışır. Bununla yanaşı, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamaqla ölkəmizdə yeni növ enerji qaynaqlarının yaradılmasına istiqamət verdi. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin genişləndirilməsinə və ekoloji tarazlığın qorunmasına istiqamətlənir. Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarında yenidənqurma işlərində də bu istiqamət əsas götürülür. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Həmin dövrdə Dünya Bankının "Doing Business" 2019-cu ilin hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olundu və 190 dövlət arasında 25-ci yeri tutdu. Bununla yanaşı, Davos Dünya İqtisadi Forumunun 2020-ci ilin hesabatına əsasən Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşdı. Ümumiyyətlə, növbədənkənar prezident seçkilərindən sonra Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, Ümumi Daxili Məhsul üç dəfədən çox artmışdır. Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xaricidir.

Digər tərəfdən, növbədənkənar prezident seçkilərindən sonra mühüm sosial rifah qeydə alındı. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə iki milyondan artıq yeni iş yerinin yaradılması, əhalinin rifah halında müşahidə olunan əhəmiyyətli artım və yeni sosial-iqtisadi imkanların genişlənməsi Azərbaycan modelinin uğurunu bütün aydınlığı ilə nümayiş etdirir. Məsələn, 2003-cü ildə imzalanmış "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" tarixi Fərman ölkəmizin gələcək inkişaf yolunun konturlarını cızdı. Bu sənəd yalnız bir dövlət sənədi deyil, bölgələrin yeni nəfəslə, yeni üfüqlərlə ayağa qalxmasının başlanğıcı oldu. İcrası uğurla təmin edilən I Dövlət Proqramı Azərbaycanın regionlarını abadlıq və inkişafla bəzədi, kəndləri şəhər səviyyəsinə yüksəltdi, minlərlə ailəyə ümid, gələcəyə inam verdi. Bu gün də həmin siyasətin davamı kimi "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ardıcıl və sistemli şəkildə həyata keçirildi. Bu proqram yalnız yeni obyektlər, yollar, məktəblər və xəstəxanalar demək deyil - bu, həm də vətəndaşın rifahı, rahatlığı və gələcəyinə olan inamını artırdı. Təkcə 2020-ci il Davos İqtisadi Forumunun hesabatında Azərbaycanın sosial rifahı və infrastruktur göstəriciləri dünya ölkələri arasında ön sıralarda yer aldı. Əhalinin elektrik enerjisinə çıxışına görə 2-ci yerdə, dəmir yolu xidmətlərinin səmərəliliyində 11-ci, hava nəqliyyatında 12-ci, dəniz limanlarında 25-ci və yol infrastrukturunun keyfiyyəti üzrə 27-ci yerdə qərarlaşdı.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, xalqın etimadı onun gücünün qaynağıdır. Bu inam, bu sarsılmaz bağ iqtidarla xalq arasında örnək bir vəhdət yaradır. Məhz bu birliyə söykənərək Azərbaycan hər sahədə zirvəyə doğru inamla irəliləyir, sabaha daha güclü, daha qürurlu addımlarla gedir.

**Nurlan ABDALOV,**
**"Respublika".**